DOI:10.30546/gdu.2023.106-111

UOT:902.

# ARAZ ÇAYI VADİSİ ERKƏN TUNC DÖVRÜ ABİDƏLƏRİNDƏN AŞKAR OLUNMUŞ DARƏVİ QURULUŞLU TİKİLİLƏR

***Məcidzadə Məcid İsgəndər oğlu***
***AMEA Arxeologiya Antropologiya və Etnoqrafiya İnstitutu***
***Azərbaycanın Orta əsrlər dövrü arxeologiyası şöbəsinin elmi işçisi***
***macidzade81@bk.ru***

**Xülasə:** *Göstərildiyi kimi erkən tunc dövründə Araz çayı vadisinin əhalisi arasında evtikmə memarlığının inkişafı və səviyyəsi çox yüksək həddə qalxmışdır. Araz çayı vadisinin əsas tikinti materiallarını xırda daş və gil təşkil edir. Tikinti əsasən dairəvi şəkildə aparılırdı. Belə tikintilərin çoxu çayların sahillərində və hündür təpələrdə aparılırdı. Arxeoloji qazıntılar nəticəsində məlum olub ki, bu evlər bir-birilərinə öncədən planlaşdırılmadan tikilmişlər.*

**Açar sözlər:** Gil qarışıqlı məhlul, çiy kərpic, adi daş, çay daşı
**Ключевые слова:** Глинобит, Сырцовый кирпич, Камен, Булыжник,
**Key words:** Clay, Stone, Peebels, Air-brick

Araz çayı vadisi Türkiyənin Şərqi Anadolu, Azərbaycanın Naxçıvan ərazisinin Araz çayı boyu bölgəsi və Qarabağın Araz çayına tökülən Quruçay və Köndələnçay bölgələrini o cümlədən İranın (Cənubi Azərbaycan) Azərbaycan Respublikası ilə sərhəd rayonlarını əhatə edir.Cənubi Qafqaz ərazisində Kür-Araz mədəniyyəti ilə tanınan İlk Tunc dövrü e.ə.IV-III minilikləri əhatə edir.Qeyd olunmalıdır ki,ilk dəfə elmdə Kür-Araz mədəniyyəti anlayışı tədqiqatçı B.A.Kuftin tərəfindən irəli sürülmüşdür.

Araz çayı vadisi Erkən tunc dövrü abidələrindən aşkar olunmuş tikili qalıqları əsasən dairəvi qismən isə dördkünc quruluşa malikdirlər. Binaların tikintisi, inşasında əsasən adi daşlardan, çay daşlarından, çiy kərpicdən və o cümlədən saman qarışığı gil möhrədən istifadə olunmuşdur. Araz çayı vadisi bölgənin abidələrinin Erkən Tunc dövrü təbəqələrinin aşağı və orta tikinti qatlarından aşkar olunmuş tikililər əsasən dairəvi formaya malikdirlər.Həmin tikililərin inşasında müxtəlif növ materialardan istifadə olunmuşdur. Dairəvi quruluşlu tikililərin bünövrəsi daş təməl üzərində, ya da bünövrəsiz olmaqla qurulmuşdur.Həmin tikililərin divarları adətən çiy kərpic,gil qarışıqlı möhrədən və ya adi daşlardan tikilmişdir. Dairəvi tikililər bəzən arakəsmələr vasitəsilə 2 hissəyə ayrılmışdır. Bir çox hallarda dairəvi quruluşlu evlər dördkünc formaya malik tikililər ilə tamamlanır. Dairəvi tikililərin ölçüləri müxtəlif olub diametrləri təxminən 4,5 metrdən 13 metrə çatır. Araz çayı vadisi İlk Tunc dövrü abidələrindən 50 çox dairəvi quruluşlu tikiliyə rast gəlinmişdir..

Araz çayı vadisi Erkən Tunc dövrü qədim yaşayış məskənlərindən üzə çıxan dairəvi quruluşlu tikililərin divarlarının bir qisminin inşaatında gil qarışıqlı möhrədən istifadə olunmuşdur.Həmin tikililərin diametri təxminən 3,5-7 metr olub, divarlarının qalınlığı 0,2-1 metr, hündürlüyü isə təxminən 0,19-0,30 metr təşkil edir.Tikililərin divarlarının hörülməsində əsasən adi və ya sarı rəngli yaxşı qarışdırılmış gil məhluldan istifadə olunmuşdur. Binaların bir hissəsi arakəsmələr vasitəsilə iki qeyri-bərabər hissəyə ayrılmışdır. Arakəsmələrin divarlarının qalınlığı təxminən 0,20-0,60 metr olub, çay daşı və ya adi daş bünövrə üzərində düzülərək gil qarışığından hörülmüşdür.Tikililərdən bəziləri dördkünc quruluşa malik artırmalara da malikdirlər. Tikililərin döşəməsi gil vasitəsilə səlis şəkildə suvanmışdır.

Bölgənin II Kültəpə abidəsinin XI tikinti qatında aşkar olunmuş təxminən 12-13 metr dərinlikdən üzə çıxarılmış istehsal xarakterli dairəvi tikili olduqca diqqətəlayiqdir(1,s.23-24, şək 5).Həmin tikilinin bünövrəsi çay daşından düzülmüş,divarlarına gəldikdə isə gil qarışıqlı möhrədən düzəldilmişdir. Tikilinin diametri təx 7 m,salamat qalmış divarlarının eni 0,52 m, hündürlüyü isə 0,23 m-dir. Tikilinin otağının qərb hissəsində armudşəkilli və dördkünc

DOI:10.30546/gdu.2023.106-111

quruluşa malik, ocaqlara rast gəlinmişdir.Armudşəkilli ocağın diametri təxminən 30 sm olub,divarları gildən düzəldilmişdir.Ocağın içərisində üç ədəd şarşəkilli və iki ədəd yastı formaya malik daşa rast gəlinmişdir. İkinci ocaq isə dördkünc quruluşlu olub, daxili divarlarına gil suvanmışdır. Həmin ocağın salamat qalan hissəsinin eni 0,82, hündürlüyü isə 0,5 metrdir. Tikilinin Şimal Şərq hissəsində yaxşı oda davamlı gildən hazırlanmış ölçüsü 2 metr olan od peçinə təsadüf olunmuşdur. Peçin yanında qırmızı və boz rəngli keramika nümunələrinə rast gəlinmişdir (şək,1).

Divarları gildən hazırlanmış digər dairəvi tikili isə həmçinin bölgənin I Kültəpə abidəsindən XIII tikinti qatından təxminən 6,4 metr dərinlikdən üzə çıxarılmışdır (2 s.,98, şək 13). Tikilinin təməli iri ölçülü kobud yonulmuş daşdan düzülmüşdür. Salamat qalmış divarının hündürlüyü 0,8-1,2 metr, qalınlığı isə 0,7 metr təşkil edir. Binanın diametri isə təx 13 metrdir. Bu bölgədən tapılmış ən iri ölçüyə malik dairəvi tikili hesab olunur. Tikilinin cənub hissəsində eni 1 metr olan qapı üçün nəzərdə tutulan keçid vardır. Qapı yerinin üzərində kiçik çuxuru olan qapının hərəkəti üçün nəzərdə tutulan dabana daşına təsadüf olunmuşdur. O.A. Həbullayevə fikirinə görə həmin tikilidən ümumi yığıncaqların və dini ayinlərin yerinə yetirilməsi üçün istifadə olunmuşdur. (2,s.98)

Azərbaycan ərazisində Erkən Tunc dövrü abidəsi hesab olunan Sərkərtəpə abidəsindən də dini ayinlərin yerinə yetirilməsi üçün istifadə olunmuş dairəvi planlı tikiliyə rast gəlinmişdir (3,s.20-32, tablo VII, şək I). Divarları gildən hörülmüş həmin tikilinin diamietri təxminən 5,4-5,8 metr təşkil edir. Tikilinin divarının şimal hissəsində gildən hazırlanmış səcdəgaha, səcdəgahın üzərində isə diametri 5 sm olan batıqla ifadə olunan təsfirə rast gəlinmişdir. (3 ,s. 22-23, tabl VII, şək I).

Tədqiqatçı D.Musayevin fikrincə həmin batıqla ifadə olunan təsvir günəş rəmzi olmuşdur. Maraqlıdır bu tipli təsvirlərə I Kültəpə və II Kültəpə yaşayış yerindən aşkar olunan manqalların ağzının kənarında da təsadüf olunmuşdur. (4,s.40)

Bölgənin I Kültəpə abidəsindən aşkar olunmuş gil məhlul ilə hazırlanmış dairəvi binalara əsasən abidənin Erkən Tunc dövrü təbəqəsinin yuxarı tikinti qatlarında (1, s. 20-42) II Kültəpə abidəsində isə anoloji hazırlanma üsuluna və quruluşa malik tikililərə isə Kür-Araz mədəniyyəti dövrü təbəqəsinin aşağı tikinti laylarında təsadüf olunmuşdur.

Araz çayı vadisi bölgənin Erkən Tunc dövrü abidələrindən həmçinin divarları çiy kərpiçdən hörülmüş dairəvi tikililərə də təsadüf olunmuşdur.Həmin tikililərə daha çox İlk Tunc dövrü təbəqəsinə aid aşağı və orta tikili qatlarında təsadüf olunmuşdur. Tikililərin bünövrəsi əsasən daş, çay daşı və kərpicdən düzülmüşdür. Həmin binaların inşasında istifadə olunan kərpiclərin ölçüsü əsasən 42x25x12 sm-dir.

Binaların tikinti texnikası çox maraqlıdır. Kərpiclər divar boyu bir cərgədə cüt, bəzən isə köndələn şəkildə düzülmüşdür. Divarların qalınlığı çox vaxt kərpiclərin ölçülərinə müvafiq götürülmüşdür. Bununla belə, bölgənin II Kültəpə abidəsinin Erkən Tunc dövrü təbəqəsindən üzə çıxarılmış bəzi binaların hörgü texnikası özünəməxsusluğu ilə seçilir. Belə ki, həmin tikililərdə divarların möhkəmliyini artırmaq məqsədi ilə cüt şəkildə düzülmüş kərpiclər müəyyən çıxıntılarla hörülmüşdür. (1,s. 20-42).

Bölgədən aşkar olunmuş kərpicdən hörülmüş dairəvi quruluşlu tikililərin divar qalınlığı təxminən 0,20-0,50 metr təşkil edir. Tikililər arakəsmələr vasitəsilə qeyri-bərabər bölgüyə malik otaqlara bölünmüşlər. Evin daha böyük olan qismində yaşayış, kiçik hissəsində isə anbar məqsədilə istifadə olunması ehtimal olunur. Arakəsmələr əsasən çiy kərpicdən və gildən hörülmüşdür. Arakəsmələrin divarları gil məhlul ilə bərkidilərək daş bünövrə üzərində tikilmişdir. Onların divarlarının qalınlığı təx 0,6 metr təşkil edir. Dairəvi tikililərin bəzən dördkünc quruluşa malik artırmalara malikdirlər.

DOI:10.30546/gdu.2023.106-111

Araz çayı vadisi ərazinin İlk Tunc dövrü abidələrindən aşkar olunmuş çiy kərpicdən hörülmüş dairəvi tikililərin diametri təxminən 5,5-8,5 metr təşkil edir. Tikililərin bəzilərində eni 1 metrə yaxın olan, qapı üçün nəzərdə tutulan keçidlərə təsadüf olunmuşdur. Binaların döşəmələri və o, cümlədən divarı hər iki tərəfdən gil ilə suvanmışdır. Tikililərdən bəzilərinin mərkəz hissəsində bina örtükləri üçün nəzərdə tutulan dirək yerlərinə rast gəlinmişdir. Bina örtüyü üçün nəzərdə tutulan dirək yerlərinə daha çox bölgənin I Kültəpə abidəsinin VII və X tikinti qatlarından üzə çıxarılmış binalarda da nəzərə çarpır (2, s. 82-104).

I Kültəpə abidəsinin erkən tunc dövrü təbəqəsinin 5-ci tikinti qatından üzə çıxarılmış kərpic bina xüsusi əhəmiyyətə malikdir. (2,s.91). Tikilinin otağının diametri 5,2 m-dir. O, gildən hörülmüş arakəsmə divarla iki qeyri-bərabər hissəyə bölünmüşdür. Divarın qalınlığı 18 sm, hündürlüyü isə 35-40sm dir. Həmin divarın mərkəz hissəsində otaqları bir-biri ilə birləşdirən 90 sm-lik qapı üçün nəzərdə tutulan giriş hissə vardır. Tikilinin böyük olan hissəsində diametri 45-50 sm olan çuxur aşkar olunmuşdur. Həmin otağın bəzi yerləri çınqıl daşı ilə, bəzi hissəsi isə gil ilə suvanmışdır. Dördkünc artırma cənub hissədən dairəvi tikiliyə birləşir. Artırma 70 sm-lik enində qapı keçidlə dairəvi tikiliyə birləşdirilmişdir. Həmin artırmanın divarları kərpicdən hörülərək, üzəri gil ilə suvanmışdır. Dördkünc artırmanın daxildən uzunluğu 2,45, eni 1,35 metr, divarlarının qalınlığı 20 sm, hündürlüyü isə 50 sm-ə bərabərdir. O.A. Həbubullayyevə görə dördkünc quruluşlu tikilidə ərzaq və təsərrüfat xarakterli əşyaların saxlanması üçün anbar kimi istifadə olmuşdur. (2,s. 91).

I Kültəpə abidəsinin Kür-Araz mədəniyyəti dövrü təbəqəsindən I tikinti qatından aşkar olunmuş dairəvi planlı kərpicdən hörülmüş tikilinin diametri təxminən 8,5 m-dir. Binanın divarının salamat qalmış hissəsinin hündürlüyü təx 34-40 sm eni isə 32 sm-dir. Tikilinin döşəməsi gil ilə suvanmışdır. Tikili arakəsmə vasitəsilə iki qeyri-bərabər hissəyə bölünmüşdür Həmin binanın kiçik otağından təsərrüfat xarakterli istifadə olunması ehtimal olunur. Maraqlısı odur ki, tikilinin divarlarının hörülməsində istifadə olunan kərpiclərin ölçüləri daha iri olmaqla 50x24x10 sm təşkil edir. (2,s. 83).

Araz çayı vadisi İlk Tunc dövrü qədim yaçayış məskənlərindən aşkar olunmuş dairəvi quruluşlu binaların bir hissəsinin divarları isə daşdan hörülmüşdür. Həmin tikililərə daha çox Araz çayı vadisi, Quruçay və Köndələnçay bölgəsində yerləşən Qaraköpəktəpə və Günəştəpə (5,s.31-39) abidələrin Kür-Araz mədəniyyəti dövrü təbəqəsinə aid A tikinti qatından və bir dənə olmaqla Naxçıvan ərazisində qeydə alınmış Ovçulartəpəsi abidəsində təsadüf olunmuşdur. (6,s.10)

Qaraköpəktəpə və Günəştəpə abidəsinin A tikinti qatında təxminən 7-yə yaxın dairəvi tikiliyə rast gəlinmişdir. Təxminən 4-ə yaxın dairəvi planlı tikili A tikinti qatının aşağı laylarında qeydə alınmışdır. (5,s. 31-39, şək 16).

Həmin tikililərin divarlarının hörülməsində qismən kobud yonulmuş adi daşlardan və kiçik çay daşlarından istifadə olunmuşdur. Tikililərin diametri təxminən 3,5-7 metr təşkil edir. Binalardan ikisinin mərkəzində tava dirəyi ücün nəzərdə tutulan dairəvi yastı daşlara təsadüf olunmuşdur. Qaraköpəktəpə və Günəştəpə abidələrindən aşkar olunmuş dairəvi daşdan hörülmüş binaların divarları və döşəmələri gil ilə suvandıqdan sonra qırmızı rənglə boyanmışdır. (5,s. 31-39)

Günəştəpə abidəsində aşkar olunmuş dairəvi bina xüsusi əhəmiyyət kəsb edir. Tikilinin diametri iri ölçülü olub təxminən 7 m-dir. Binanın hörülməsində iri ölçülü kobud şəkilli daşlardan istifadə olunmuşdur (5,s.31-39,şək18). Divarların salamat qalmış hissəsinin hündürlüyü 0,70 metrdir. Tikilinin divar və döşəməsi gil ilə suvanmışdır. Binanın çıxışı cənuba tərəf istiqamətləndirilmişdir. Binanın otağının cənub-qərb divarı istiqamətində uzunluğu 2 m, eni 0,50 m, hündürlüyü 0,30 m olan gildən hörülmüş tikili aşkar olunmuşdur. Divarın çöl hissəsində həmçinin diametri 2 metr olan təsərrüfat quyusuna da təsadüf

DOI:10.30546/gdu.2023.106-111

olunmuşdur. Yuxarıda qeyd olunan tikilinin daha iri ölçülü olması nəzərə alınaraq ondan tayfanın ümumi yığıncaqlarının keçirilməsi üçün istifadə olunması ehtimal olunur (şək,2). Aşkar olunmuş dairəvi divarları daşdan hörülmüş tikililərin çox hissəsi bir otaqlı evlər kimi xarakterizə olunur.

Ovçulartəpəsi abidəsindən aşkar olunmuş tikili xüsusi maraq doğurur (6,s. 10, şək 6). Belə ki həmin dairəvi evin diametri 7 metr olub, divarlarının şərq və qərb hissələri daşdan, cənub tərəfi isə kərpicdən inşa edilmişdir. Binanın eyni divarının hörülməsində daşdan və kərpicdən istifadə olunmasına gəldikdə isə Tədqiqatçıların fikrincə bu yamacda sürüşmənin qarşısını almaq üçün nəzərdə tutulmuşdur (6,s. 10).

Ümumiyyətlə Cənubi Qafqaz o cümlədən Azərbaycan ərazisində dairəvi quruluşlu tikili ənənəsi öz başlanğıcını hələ Neolit dövründən götürmüşdür. Belə ki, son zamanlar Kür çayının orta mənsəbində yerləşən Neolit dövrünə aid Göytəpə, Hacıelamxanlı, Kiçiktəpə kimi qədim yaşayış yerlərində aparılan arxeoloji qazıntılar nəticəsində dairəvi planlı çiy kərpicdən hörülmüş binalara təsadüf olunmuşdur.

Hacıelamxanlı abidəsindən üzə çıxarılmış darəvi tikilili xüsusi maraq doğurur.Çiy kərpiçdən hörülmüş bir birinə bitişik iki tikili quruluş baxımından ərəb səkkiz rəqəmini xatırladır. Tiklilərdən birinin diametri 3 digərinin ki isə 5 metirdir (7,s.153-159 şək 4,5; 8,s.74-76 )

Qeyd etmək lazımdır ki, dairəvi quruluşlu tikililərə Azərbaycan ərazisindən digər Erkən Tunc dövrü abidələrində də rast gəlinmişdir. Onlara Baba-Dərviş qədim yaşayış məskənində (5,s.34), Sərkərtəpə (3,s.20-32) abidəsində təsadüf olunmuşdur.

Analoji quruluşa malik tikililər Cənubi Qafqazın bir çox Erkən Tunc dövrü abidələrindən də məlumdur. Dördkünc quruluşlu artırmalara malik dairəvi tikililərə Elar, Şenqavit (5,s.34-35) kimi qədim yaşayış məskənlərində də rast gəlinmişdir.

Dairəvi quruluşlu tikililərə həmçinin Gürcüstan ərazisində yerləşən Kür-Araz mədəniyyəti dövrü yaşayış məskənləri olan Kvaçxelebi (9,s. 61),Xizannant qora (10, s.90-94) və s abidələrində təsadüf olunmuşdur.

Dağıstan ərazisində dairəvi quruluşlu tikililər İlk Tunc dövrü qədim yaşayış məskənləri olan Vəlikənt, Qayakənd, Makeqi, Qinçi, Qalqalati, Mamaykutan (11,s.175-177) və s abidələrdən aşkar olunmuşdur..

Dairəvi binalar Cənubi Azərbaycan ərazisindəki Urmiya gölü hövzəsində yerləşən Göy-təpə (12,s.147) və Yanıq-təpə abidələrinin (13,s.134-149) İlk Tunc dövrü təbəqələrindən də üzə çıxarılmışdır.

Qeyd olunmalıdır ki, Kür –Araz mədəniyyətinə aid qədim yaşayış məskənlərindən aşkar olunmuş dairəvi quruluşlu tikilililərin mənşəyi məsələsi gəldikdə isə bəzi tədqiqatçılar Cənubi Qafqaz ərazisində dairəvi binaların yaxın şərqin arxitekturası ənənəsinin təsirindən yarandıqlarını söyləmişlər(14,s.195-196). Lakin, Q.S.İsmayılzadə Cənubi Qafqazın İlk Tunc dövrü dairəvi binaların mənşəyi məsələsinə toxunarkən belə tikilili ənənəsinin gəlmə deyil məhz bölgənin qədim əhalisinin yerli arxitektura ənənələri ilə sıx bağlı olduğunu bildirmişdir (5,s.37).

Qeyd etmək lazımdır ki, Cənubi Qafqaz ərazisində dairəvi quruluşlu binaların hələ Neolit dövründən etibarən məlum olması faktı nəzərə alınsa fikirimizcə Kür-Araz mədəniyyətinə aid belə tikililərin mənşəyi gəlmə deyil məhz bölgənin qədim əhalisinin yerli memarlıq ənənələrindən yaranmışdır.

Cənubi Qafqaz ərazisində yerləşən Kür-Araz mədəniyyətinə aid abidələrdən üzə çıxarılmış dairəvi binaların damlarının quruluşu məsələsi gəldikdə isə tədqiqatçıların bir çoxu belə tikililərin dam örtüklərinin dairəvi künbəzşəkilli olduğunu söyləmişlər. Belə ki, O.A.Həbibullayev I Kültəpə abidəsindən İlk Tunc dövrünə aid tikinti qatlarından məlum olan

DOI:10.30546/gdu.2023.106-111

dairəvi binaların bir çoxunun mərkəz hissəsində çalalara və ya dirək üçün nəzərdə tutulan iri yastı daşlara rast gəlinməsini söyləyərək dairəvi tikililərin damlarının künbəzşəkilli olması fikiri ilə çıxış etmişdir. (15,s.34).

Digər tədqiqatçı Q.S.İsmayılzadəyə görə isə Qaraköpəktəpə qədim yaşayaış məskəninin Kür-Araz mədəniyyətinə aid tikinti qatlarından aşkar olunmuş dairəvi tikililərin divarlarında içəriyə doğru əyriliyin olması faktı belə tikililərin dam örtüyünün künbəzşəkilli olmasını sübut edir (5,s.36).

Fikirimizcə Cənubi Qafqazın İlk Tunc dövrü qədim abidələrindən məlum olan dairəvi tikililərin dam örtükləri simmetrik baxımından tikilinin divarına uyğunluq təşkil edərək dairəvi künbəzşəkilli quruluşa malik olmuşdular ki,bu da öz növbəsində binaların təbiət hadisələri olan yağmura və ya zəlzələyə davamiyyətini təmin etmişdir.

Göründüyu kimi, artıq Erkən Tunc dövründə, Araz çayı vadisi qədim sakinləri arasında yaşayış tikintisi memarlığı ənənəsi özünəməxsus inkişaf mərhələsinə qədəm qoymuşdur. Məlumdur ki, Araz vadisi Erkən Tunc dövrü dairəvi tikili ənənəsi, sözsüz ki, mənşə etibarilə Cənubi Qafqazın Neolit dövrü memarlıq ənənələri ilə sıx bağlı olmuşdur.Araz çayı vadisi Erkən Tunc dövrü yaşayış məsgənlərİnin planlaşdırılması məsələsinə gəldikdə isə, yaşayış məsgənləri əsasən çay kənarlarında, təbii təpələr üzərində bir növ təssərüfat və müdafiə üçün əlverişli yerdə salınmışdır. Qazıntılar nəticəsində yaşayış binalarına əsasən qeyd etmək olar ki, yaşayış məskənləri sıx tikililərdən ibarət olmuşdur.

### *Ədəbiyyat*

1. Сеидов А.Г.Памятники Куро-Аракский культуры Нахичевана Баку Билик.1993,164 с
2. Абибуллаев О.А. Энеолит и Бронза на территории Нахичеванский АССР. Баку, 1982,304с
3. Мусаев.Д.Л. Серкертепе поселение эпохи ранний бронзы Баку .2006,160с
4. Vəli Baxşəliyev Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti Bakı.2004
5. Исмаилзаде Г. Азербайджан в системе раппебронзовой культурной общности Кавказа. Баку.2008,304с
6. Baxşəliyev Vəli, Catherine Marro, Səfər Aşurov Ovçulartəpəsi (2006-2008-ci il tədqiqat-larının ilk nəticələri) Bakı Elm. 2010,s3-21
7. Гулиев.Ф.Э.Процессы неолитизации в бассейне Средней Куры Институт Археологии, этнографии и антропологии Национальной Академии Наук Азербайджана Баку, Азербайджан 2021.с 146-167
8. Guliyev, F. & Y. Nishiaki (2012) Excavations at the Neolithic settlement of Göytepe, the middle Kura Valley, Azerbaijan, 2008–2009. . Proc. 7th CAANE, Vol. 3: Fieldwork and recent research, edited by R. Matthews and J. Curtis, pp. 71-84. Wiesbaden: Harrassowitz Verlag p 72-79
9. Джавахшвили А.И. Глонти Л. Урбниси I. Тибилиси 1962.101 с
10.Кивкикидзе Я.А Рание бронзовое поселение хизаанант гора Тибилиси А.Н 1970,96 s(gürcü dilində)
11.Мунчаев Р.М Кавказ на заре бронзового века Махачкала.1975,415 с
12.Burton Brown. Excavetions in Azerbaijan 1948 London 1951,279 p
13.Burney C.A.The excavetions at Jonic-tepe Azerbaijan,second prelomary report, İraq, vol. XXVI, 1961,pp138-153
14.Мунчаев Р.М .,Мерперт Н.Я.Раннеземледельческие поселение северной Месапатомии.Москва,Наука,1981 320 с
15.Həbibullayev.O.A.Kültəpədə arxeoloji qazıntılar.Bakı 1959,134 c

DOI:10.30546/gdu.2023.106-111

## THE ROUND PLAN HOUSES OF THE EARLY BRONZE AGE FOUND IN THE MONUMENTS OF THE ARAS VALLEY

***Mejitov Mecit Iskender***

***Summary***

As it’s mentioned above the acrhitecture of dwelling building among the inhabitants of Aras valley had alredy reached its high level.The round plan  building traditional of the region which we investigate was closely connected to Southern Caucasian architecture of Neolithic period according to its orogin.In the building of round plan houses was mainly used air-brick,clay mixed mixture,simple stones and cobble-stones.As for the plannning of settelements they üere settled ar the riversides and on the natural hills.

## КРУГЛОПЛАНОВЫЕ ДОМА НАЙДЕННЫЕ В РАННЕБРОНЗОВЫХ ПОСЕЛЕНИЕ АРАКСКОЙ ДОЛИНЫ

***Меджидов Меджит Искендер оглы***

***Резюме***

Как был показано выше в период ранней бронзы развитие и уровень домастроетилный архитектуры среди жителей Аракской долине достиг своего вышего уровня.Традиция строетелства круглоплановых жилищ изучаймое нами долине реки Аракс несомненно был связн архитектурным традициями Неолитического периода Закавказье.Основным строителным материалом для круглоплановых жилищ найденные Аракской долине служил глинобит,сырцовый кирпич,камен и булыжник.Насчет планировки поселении болшенство случаев они были застроены у рек или на естественно возвышающихся холмах.По археологическим раскопкам можна утверждат что дома были плотна строены вплотную друг к другу без определнной планировки.




Şəkil 1



Şəkil 2

***Rəyçi: prof. A.M. Məmmədov  və dosent  M.M. Hüseyinov***
***Azərbaycanın  Orta əsrlər dövrü arxeologiyası şöbəsinin 7 iyun 2023-cü il tarixli iclasın 06 saylı protokolu***
***Daxil olma tarixi 14 iyun 2023-cü il***